

## Nəriman Həsənzadə
## Xalq şairi

# AC DOLANNAM BURDA NAHAR VAXTIMI

Qoca Təbriz...
                    necə əziz, möhtəşəm!
Ağ saçımı
                    ağ saçına sürtərəm.
Dəymə mənə,
                    Təbrizdə birtəhərəm,
mən ağlasam,
                    sil gözümün yaşını.
Qorqud babam,
                Oğuz tayfam, soy köküm.
Şəhriyarın
məzarına diz çöküm.
Heç bilmirəm -
                    burda kimə dil töküm,
ikicə gün
                    artıralar vaxtımı,
                    ac dolannam
burda nahar vaxtımı...

*Təbriz, may 1991*

# QARDAŞ

Bir yerdə "bəy" oldum, bir yerdə "ağa"
gördüm İstanbulu, Təbrizi, qardaş.
Öllük məzarımız çökər torpağa, -
ayrılıq ayırmaz ta bizi, qardaş.

Səsimiz o dağdan bu dağa düşməz,
Başdakı yerimiz ayağa düşməz.
Millət bir olmasa belə öpüşməz,
Siz bizi çağırın, biz sizi, qardaş.

Əlifba ayırdı, Araz ayırdı,
Araz üstə saldat, sərbaz ayırdı.
Başımıza dəyən qapaz ayırdı,
artdıqca görüşmək həvəsi, qardaş.

Təbrizi mən Gəncəsyaq bilmişəm,
Mərəndi görəndə Qazax bilmişəm.
Ən yaxın yerləri uzaq bilmişəm,
bir at mənziliymiş yol-izi, qardaş.

Doyunca baxıram, doya bilmirəm,
əlini əlimdən qoyma bilmirəm.
Nədir bu dünyada dünya bilmirəm,
Nədir bu zülümün çarəsi, qardaş?

# SÜRÜCÜ

*Sürücü Ağayi Rzaya*

Culfaya çatmamış saxla, ay Rza,
belə yeyin sürmə, daha az qalıb.
Bu taydan baxım mən dərdli Araza,
o taydan baxmaqdan gözüm saralıb.

Heç bələd olmadım mən yola-izə,
Nə vaxt dönəcəyəm bir də ya qismət.
Gələndə həsrətlə gəldim Təbrizə,
gedirəm, ay Rza,
                    yenə də həsrət.

Maşının qırılıb yolda qalaydı,
bir az ləngiyəydin bu gün, ay Rza.
El kəsib yolunu namaz qılaydı,
namaz qılmayıbsan özün, ay Rza.

Yel əsir bahardan üzü payıza,
sərhədə tələsik aparma məni.
Bir əlim Təbrizdən tutub, ay Rza,
bir əlim Mərənddən...
                    qoparma məni!

# TUTUBDU

*(Lövhələr)*

Eynal-Zeynal dağı bir silsilədi?
Təbriz -
                    ətəyində qərar tutubdu.
Döşü tala-tala yanıb dağların
ovcun içi kimi qabar tutubdu.

Cavanlar bığ qoyur, saqqal saxlayır,
qızlar çadra örtür, örpək bağlayır.
Qohum qohumunu tapıb ağlayır,
neyləsin, ürəyi qubar tutubdu.

Bir dehqan
                    xiyarı yemişə qatıb,
bir araba üstə bir bostan satıb.
Yorulub, asfaltın üstündə yatıb,
üstə - kölgəsini çinar tutubdu.

Seçilir hər yerdə dövlətli, kasıb,
tale qismətini alnına yazıb.
Qurani-Kərimi bağrına basıb
təsbehi əlində qəmxar tutubdu.

El gölü, Göy məscid, Təbriz yaylası,
orda Kürü gəzdim, burda Arazı.
Sənə canım qurban, ay Ərk qalası! -
sənin dörd yanını hasar tutubdu.

Azad Azarbaycan.- 2022- ci il.- 30 dekabr.- S. 8.